# "Dünya arxayındır etibarıma..."

## (Ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru, şair Atif Zeynallı haqqında etüd)



**Ötən əsrin 60-cı illəri Azərbaycan mədəniyyətinin özünəməxsus intibah dövrü idi. Bu intibah ədəbiyyatda, xüsusilə poeziyada da özünü göstərirdi. 40-50-ci illər şeirinin zahiri pafosundan, "qəliblərə" yerləşdirilmiş forma, məzmun və üslubundan uzaqlaşmış poeziya yeni nəfəs, söz, fikir, duyğu təşnəsində idi. O dövrün oxucusunu da təntənəli sözlər deyil, orijinal fikrin "gizləndiyi" çevik poetiklik, poetika ilə fikrin qovşağında qərarlaşmış duyğulu ifadələr maraqlandırırdı. Həmin illərdə gənc olan, 30-u yeni keçmiş istedadlı qələm sahibləri də formalaşaraq böyük ədəbiyyata qovuşmuşdu. Artıq imzası oxuculara yaxından tanış olan Bəxtiyar Vahabzadə, İslam Səfərli, Nəbi Xəzri, Cabir Novruz, Zeynal Cabbarzadə ilə yanaşı, poeziya cığırlarında Əli Kərim, Qabil, Fikrət Qoca, Zeynal Xəlil, Sərdar Əsəd, İlyas Tapdıq, Tofiq Bayram, Əhəd Muxtar, Söhrab Tahir, *Kələntər Kələntərli kimi şairlərin də* izi görünür, get-gedə dərinləşir, mətinləşirdi. O nəsli təmsil edən, o sadalanan çevrədə olanlardan biri də indi unudulmuş kimi görünən Atif Zeynallı (1927-1991) idi.**

Yaradıcı şəxsin sənətə gəlişini təsadüflə, yaxud əksinə, zərurətlə, ailə ənənəsi ilə bağlayanlar da var. Atif Zeynallının isə poeziyaya gəlişi nə təsadüf idi, nə də zərurət. Sadəcə poeziyaya həvəs onun daxilində idi, o, böyüdükcə, bu həvəs də artıb get-gedə sevgiyə çevrilirdi.

Kiçik Atif hələ məktəbə getməzdən öncə kitab-dəftər vurğunu idi. Yaşadığı İçərişəhərə yaxın 132 saylı məktəbdə arıq, çəlimsiz məktəblini poeziya həvəskarı kimi tanıyırdılar. Bu, hələ müharibədən əvvəlki illər idi. Ağır müharibə illərində isə ailəsi ilə birlikdə Mərdəkana, bağ evinə köçən yeniyetmə oradakı 156 saylı məktəbdə 8-10-cu sinifləri oxuyub başa vurmuşdu. Müharibənin ağır çağında - 1942-ci ildə ailənin köçü təsadüfi deyildi. Atası Əbdülbağı kişi bəy-xan nəslindən olmasa da, savad görməsə də, inqilabdan əvvəl fərasətli, zirək, zəngin bir gənc kimi tanınırdı. Şəhərdə evləri, dükanları, Abşeronda torpaqları vardı. 1920-ci ildən sonra bir neçə dəfə tutulub-buraxılan, mülkləri əlindən alınan Əbdülbağı Bakı üzərində Hitler təhlükəsi artdıqca, çekistlərin tək-tük qurtulmuş köhnə sahibkarları necə gedər-gəlməzə apardıqlarını görürdü. Bəzilərinin atmaca atması, ikibaşlı danışması onu çox narahat edirdi. Qaçmaq imkanı olmasa da, heç olmasa gözə görünməmək üçün Əbdülbağı kişi ailəsi ilə birlikdə Mərdəkana köçür. Atif Zeynallı danışardı ki, məktəblə evləri arasında köhnə qəbiristan varmış. Payız gecələri məktəbdə dərslər qurtaranda qaranlıqlaşırdı. Qəbiristanlığın içindəki cığırla tək gedən yeniyetmə üşürgələnsə də, qorxunu boğmaq üçün zümzümə edir, bəzən lap zilə də çıxırdı. O vaxtlar yaxşı səsi var imiş. Məktəbdə müəllimləri onu həm şeirlərinə, həm də şirin avazına görə tərifləyirdilər. Bir dəfə gənc Atif (tələbəlik vaxtı, ADU-nun şərqşünaslıq fakültəsində oxuyurdu) həyətlərindəki tut ağacına çıxaraq həvəslə zəngulə vururmuş. Bu vaxt Bülbül öz "Pobeda" maşınında Şağandakı bağına gedirmiş (həmin bağla Atif Zeynallının bağı nisbətən yaxındır). Gəncin məlahətli səsini eşidən Bülbül maşını saxlatdırır, gəlib onun anasını tapır, oğlanı özü ilə aparmaq, onunla məşğul olmaq istədiyini bildirir. Qapılarında "hökumət maşını" görən, Bülbülün geyim-keçimindən qorxan savadsız qadın oğlunun universitetdə nəsə artıq-əskik danışdığını (o, elə uşaqlıqdan sözü üzə şax deyən, bir az da acıdil və tezqızışan idi), dalınca gəldiklərini güman edir, qara-qışqırıq salır

1949-cu ildə ali təhsilini başa vuran Atif Zeynallı bir müddət Bakının Stalin (indiki Səbayil) rayonunda, Mərdəkanda, oxuduğu 158 saylı məktəbdə və Astarxanbazar (Cəlilabad) rayonunda müəllimlik edib, Azərnəşrdə redaktor olub. Hələ 1947-ci ildə, 20 yaşında ikən "Azərbaycan gəncləri" qəzetində "Azərbaycan" adlı ilk şeiri çap olunan Atif Zeynallı 44 illik yaradıcılığının sonuna kimi "Azərbaycan" mövzusuna sadiq qaldı.

Atif Zeynallı poeziya ilə yanaşı, elmə, ədəbiyyatşünaslığa da böyük maraq göstərirdi. Özünü "Azərbaycan ədəbiyyatşünaslığının qara fəhləsi" adlandıran şair həm də peşəkar tədqiqatçılıq istedadına malik idi. Bakıda şərqşünaslıq fakültəsində təhsilini başa vurduqdan sonra (ixtisasca iranşünas idi) 1953-cü ildə Moskvaya yollanmış, SSRİ EA Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olmuşdu.

Atif Zeynallı 1957-ci ildə namizədlik, 1971-ci ildə doktorluq dissertasiyası müdafiə edib. Namizədliyi C.Cabbarlı yaradıcılığında yeni insan surətlərinə, doktorluğu isə Şərq poetikası məsələlərinə (S.Rüstəmin yaradıcılığı nümunəsində) həsr olunmuşdu. O, həm də S.Vurğun poetikasının mahir bilicisi idi. Bir şair kimi, Atif Zeynallının poeziyaya bağlılığının kökündə məhz Səməd Vurğun sevgisi dayanırdı. Bu sevgi onu poeziyaya gətirmişdi, ilk mətbu şeiri olan "Azərbaycan" da elə bu hissin təsiri ilə qələmə alınmışdı.

Səməd Vurğun məhəbbəti onun həm poeziyasında, həm də elmi fəaliyyətində dərin iz buraxıb. Atif Zeynallı Səməd Vurğun yaradıcılığına həsr edilmiş bir çox elmi oçerk və məqalələrin müəllifidir. O, "Səməd Vurğun" çoxcildli nəşrinin redaktoru olmuşdur. Səməd Vurğunu "Azərbaycan poeziyasının pasportu" adlandıran şair özünün "Mil poeması"nda (bunu məşhur "Muğan" poemasının təsiri ilə yazmışdı) onun surətini dərin hörmət və məhəbbətlə səciyyələndirmişdi. Səməd Vurğunu Milin, Muğanın gözü adlandıran müəllif sonrakı misralarda "yox, yox" deyərək bu cür davam edirdi:

*O, Milin, Muğanın gözü deyildi,*
*O, Milin, Muğanın elə özüydü.*

Şair qoynunda doğulub böyüdüyü dənizin də vurğunu idi. Təsadüfi deyil ki, 1957-ci ildə çap olunmuş ilk şeirlər kitabı "Sahildə" adlanırdı. Bundan iki il sonra, 1959-cu ildə Azərnəşr tərəfindən ikinci kitabı buraxıldıqda şair təkidlə kitabı "Yenə o sahildə" adlandırdı. Atif Zeynallının 40-a yaxın kitabının böyük əksəriyyəti elə şeir kitablarıdır. "Dənizin övladları" (1963), "Buz qala" (1965), "Könlümün səsi" (1967), "Üç dəniz arxasında" (1970), "Bir yarpağam" (1974), "Xəzər, sənə sözüm var" (1976), "Elə arxalan" (1978), "Əbədilik" (1979) kimi kitablarında şeir və poemaları toplanıb. Atif Zeynallının digər kitabları əsasən ədəbiyyatşünaslıq məsələlərinə həsr olunub. "Keçilməmiş yollarla" (1970), "Süleyman Rüstəm" (1976), "Xalq şairi Məmməd Rahim" (1984; Şamil Salmanovla birgə) və başqa kitabları filologiya yönümlüdür.

Atif Zeynallının bədii yaradıcılığında poeziya ilə yanaşı, dramaturgiyanın da müəyyən çəkisi var. Şair bir neçə dram əsərinin, komediyanın müəllifi kimi də tanınır. Onun bir vaxtlar populyar olan "Məmmədəli kurorta gedir" komediyasına mərhum sənətkarımız, Xalq artisti Nəriman Məmmədov musiqi bəstələmişdi. Atif Zeynallının "Vərəsə", "Əzəmət", "Nəriman ata" kimi pyesləri ötən əsrin 60-70-ci illərində ədəbi məclislərdə qızğın müzakirə obyektinə çevrilmişdilər. Bu əsərlərin bir qismi müxtəlif teatrlarda səhnəyə qoyulmuşdu. Atif Zeynallının bəzi şeirlərinə nəğmələr də bəstələnib. "Laçınım" mahnısı indi düşmən tapdağında olan Laçın rayonunun gözəlliklərinin poetik təsvirindən yaranıb. Şairin bəzi nəğmələri isə müəllifi olduğu dram əsərlərindən götürülüb.

Atif Zeynallının poetikası öz dövrünün aynası olub və həmin illərdə dəb hesab edilən mövzularla səsləşirdi. Lakin şair təkcə əmək mövzusundan, təbiət gözəlliklərindən, xalqlar dostluğundan yazmır, Vətənini, qəhrəman oğul və qızlarını mədh edir, bu zaman "Ezop dili ilə" çox kəsərli sözlər də işlədirdi. Elə buna görə də şair bəzi başqa qələm dostları kimi bir-iki dəfə "orqanlara" dəvət edilmiş, onunla "profilaktik" söhbətlər aparılmışdı. Lakin xoşbəxtlikdən dövran o dövran deyildi; 60-70-ci illərdə əvvəlcə Təhlükəsizlik Komitəsinə, sonra isə bütün respublikaya rəhbərlik edən Heydər Əliyev təlatümlü söz, sənət adamlarına sezilmədən himayədarlıq edir, alovlu, bəzən kəskin, aşkar dillə öz təcəssümünü tapan vətən yanğılarına görə onların təqib olunmasına imkan vermirdi.

Atif Zeynallının elmi fəaliyyəti Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda gerçəkləşib. Şair uzun illər buradakı "Azərbaycan sovet ədəbiyyatı tarixi" şöbəsində böyük, aparıcı elmi işçi vəzifələrində işləyib və elmi-tədqiqatçılıq fəaliyyəti də bu şöbə ilə bağlı olub. Bir insan kimi o, səmimi, xoşrəftar idi, yaltaqlığı, "oyun oynamağı" görən gözü yoxdu. Ədalətsizliyə dözümsüz, haqq yolunda qovğaya hazır olmaqla bərabər, həm də zarafatcıllığı, kefi yaxşı olanda deyib-gülməsi vardı, buna görə institut əməkdaşları onun xətrini çox istərdilər. 70-80-ci (və daha sonrakı) illərdə Ədəbiyyat İnstitutunda çalışan Bəkir Nəbiyev, Yaşar Qarayev, Qasım Qasımzadə, Şamil Salmanov, Arif Abdullazadə, Rasim Tağıyev, Qurban Bayramov, eləcə də o dövrün gəncləri - Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Rəhim Əliyev və başqaları ilə yaxın idi, isti münasibəti, zarafatı vardı. Üzvü olduğu İnstitut Elmi Şurasında kəsərli çıxışlarına, düz sözü müdafiə etdiyinə görə bəziləri onunla ehtiyatlı davranır, çoxusu isə məhz buna görə ona hörmət bəsləyirdi.

Atif Zeynallının şəxsiyyət və yaradıcılıq portretini "bağ" kəlməsi olmadan tam səciyyələndirmək olmaz. Şair Mərdəkanda dədə-baba mülkü olan bağlarını çox sevirdi və bu bağ, qumlu Abşeron torpağı, bir qədər uzaqda ləpələnən köpüklü Xəzər, qayalı sahil onun təbiətə məftunluğunun həmişəyaşar təcəssümü idi. Daxilən tənhalığa meyilli olan şair çox zaman elə bağ evində tək qalır, sakit mühitdə yaradıcılıqla məşğul olurdu. İndi çoxlarının Abşeronda dəbdəbəli evləri var ki, buna heç bağ da demək olmaz. Çoxusu da şəhərdəki sıxlıqdan qaçaraq bura gəlir. Lakin Atif Zeynallı elə o zaman da bağa bağlı idi və bu bağ çox təmtəraqlı olmasa da, rahat idi, özünəməxsus yaradıcılıq aurası vardı, bir vaxtlar ədəbi dairələrdə, yaradıcı mühitdə çox məşhur idi. Kimlər olmamışdı o bağda - Süleyman Rüstəm, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Hüseyn Arif, Qabil, İlyas Tapdıq, Xəlil Rza, Gəray Fəzli, Nahid Hacızadə, Nüsrət Kəsəmənli, Kələntər Kələntərli, Famil Mehdi, Əlibala Hacızadə, Məstan Əliyev, Vladimir Qafarov, Yusif Həsənbəy — hamısı da bu bağı ötən illərin ən xoş təəssüratları cərgəsində xatırlayırdılar.

Şairin son kitabı öz sağlığında - 1990-cı ildə çap olunub və "Dünya arxayındır etibarıma" adlanır. Yaxınlarda dünyasını dəyişəcəyini hiss edən, lakin malik olduğu ən qiymətli "əmanətini" - şeirlərini etibarlı saxlanca - el yaddaşına ötürdüyü üçün arxayın olan, təşviş keçirməyən ixtiyar (bəlkə də ortayaşlı demək daha düzgün olardı) elə buna görə son kitabına belə bir ad seçmişdi.

Onun çap olunmayan şeirləri az deyil. Xüsusən 1990-cı ilin ikinci yarısında - xəstə yatdığı aylarda yaşıl cildli cib dəftərçəsinə yazdığı şeirlərin çoxu çap edilməyib. Onlardan biri "Millət kimi yoxam mən" adlanır və Qarabağ hadisələrinin yeni başladığı dövrün yanğılı ab-havasını çox sərrast, bəlkə bir az da Sabir satirasından bəhrələnmiş tərzdə əks etdirir. Orada belə bir bənd var:

*Torpağımız hər millətin yurdudur,*
*Nə olsun ki, hamısından çoxuq biz.*
*El-obamız tayfa-tayfa ordudur,*
*Ona görə millət kimi yoxuq biz.*

Atif Zeynallının dünyasını dəyişməsindən 25 ilə yaxın vaxt keçir. Kimlərsə onu çoxdan unudub, kimlərsə xatirələrdə yaşadır, kimlərsə, xüsusən gənc nəsil, belə bir ada yerli-dibli təsadüf etməyib. Ancaq Atif Zeynallının əbədi irsi qalıb, həm də elə bir irs ki, zamana görə köhnəlmir, əksinə, bir qədər də cilalanır, kəsərlənir. Əgər bu irs varsa, demək o, yaşayır. O, ölümdən, unudulmaqdan qorxmurdu, çünki şeirlərində diriləcəyinə əmin idi. Bu ikinci ömür birincisindən uzun olacaq. Elə bu inamla da ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru, mərhum şair-dramaturq Atif Zeynallını xatırladıq...

E.CABBARLI.